# Elm və təhsil naziri Dünya Təhsil Forumunda iştirak edib

## Emin Əmrullayev forum çərçivəsində bir sıra görüşlər keçirib









### Böyük Britaniyada təhsil alan azərbaycanlı tələbələrlə görüş

Elm və təhsil naziri Emin Əmrullayev 19-21 may tarixlərində London şəhərində keçirilən Dünya Təhsil Forumunda iştirak üçün Birləşmiş Krallıqda işgüzar səfərdə olub.

Səfər çərçivəsində elm və təhsil naziri Böyük Britaniya universitetlərində dövlət təqaüdü ilə təhsil alan azərbaycanlı tələbələrlə görüşüb.

Görüşdə Emin Əmrullayev tələbələrə Azərbaycanda elm və təhsil sahəsində aparılan islahatlar və gələcək planlar barədə məlumat verib. Xüsusən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilməsi planlaşdırılan irimiqyaslı layihələrdən bəhs edən nazir növbəti tədris ilindən Xankəndidə fəaliyyətə başlayacaq Qarabağ Universiteti barədə də danışıb. Nazir bildirib ki, məqsəd bu universiteti beynəlxalq elm və tədqiqat, həmçinin Qafqazın keyfiyyətli ali təhsil mərkəzinə çevirməkdir.

Bundan əlavə, xaricdə təhsil üzrə dövlət və ikili diplom proqramları, beynəlxalq təhsil layihələri barədə məlumat verən nazir Azərbaycanda doktorantura təhsilinin inkişafı sahəsində görülən işlərdən söz açıb.

Emin Əmrullayev dövlət proqramları çərçivəsində azərbaycanlı tələbələrin daha çox dünyanın ən nüfuzlu universitetlərində təhsil almasının sevindirici hal olduğunu vurğulayıb. Nazir bu göstəricinin önümüzdəki illərdə də artan dinamika ilə davam edəcəyinə ümidvar olduğunu bildirib.

Görüşün sonunda nazir tələbələrin suallarını cavablandırıb, onlarla xatirə şəkli çəkdirib.

### Dünya Təhsil Forumunda

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti London şəhərində keçirilən Dünya Təhsil Forumunda iştirak edib.

114 ölkədən 120 nazirin iştirak etdiyi forum "Süni intellektin təşviqi, insan münasibətləri və dayanıqlılığın qurulması, iqlim fəaliyyətinin sürətləndirilməsi. Daha güclü, daha cəsarətli, daha yaxşı təhsil üçün siyasət və icranı necə prioritetləşdirməliyik?" mövzusuna həsr olunub.

Qeyd edək ki, forum çərçivəsində bir sıra ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirilib.

### Forum çərçivəsində ikitərəfli görüşlər

Dünya Təhsil Forumunda iştirak edən elm və təhsil naziri Emin Əmrullayev ikitərəfli görüşlər keçirib.

Emin Əmrullayev Malayziyanın ali təhsil naziri Zambri Abdul Kadir və Özbəkistan Respublikasının məktəbəqədər və ümumtəhsil naziri Xilola Umarova ilə görüşüb.

Forum çərçivəsində elm və təhsil naziri, həmçinin Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, Böyük Britaniyanın Təhsil departamentinin məktəblər üzrə müşaviri Baronessa Diana Barranla görüş keçirib.

Dünya Təhsil Forumu mayın 22-də öz işini yekunlaşdırıb.

Forumun ikinci günündə elm və təhsil naziri Emin Əmrullayev Kembric Universitetinin iqlim təhsili üzrə qlobal direktoru Kristina Ozden, Beynəlxalq Reytinq Agentliyinin qlobal məsələlər üzrə rəhbəri Fil Bati, Böyük Britaniyanın Hökumət Akademiyasının direktoru Bar Veinstein, "Microsoft" şirkətinin Mərkəzi Avropa üzrə təhsil direktoru Lenka Axlerova, Xarici Birlik və İnkişaf Ofisinin təhsil, gender və bərabərlik üzrə direktoru, Böyük Britaniyanın gender bərabərliyi üzrə xüsusi nümayəndəsi Alisia Herbertlə görüşüb.

Emin Əmrullayev, həmçinin Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilakhvari ilə görüşüb və onunla fikir mübadiləsi aparıb.

Sözügedən görüşlər çərçivəsində ikitərəfli əməkdaşlığın cari vəziyyət və perspektivləri müzakirə olunub.

### Azərbaycanın elmmetrik göstəriciləri müzakirə edilib

Dünya Təhsil Forumunda iştirak edən elm və təhsil naziri Emin Əmrullayev bibliometrik və elmmetrik tədqiqatlar üzrə dünyanın ən nüfuzlu şirkətlərindən biri hesab edilən "Clarivate Analytics"in rəhbərliyi ilə görüşüb.

Şirkətin akademiya və hökumətlərlə iş üzrə prezidenti Bar Veinsteinin rəhbərlik etdiyi heyətlə görüşdə tərəflər son illərdə Azərbaycanın elmmetrik göstəricilərini müzakirə ediblər.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə 2023-cü ildən bütün elm və ali təhsil müəssisələrinin "Clarivate Analytics" şirkətinin "Web of Science" elmmetrik bazasına girişi təmin olunub.

Azərbaycan müəllimi.- 2024.- 24 may, №16.- S.3.